# SEYİDOV MİRƏSGƏR MİRABDULLA OĞLU



6 fevral 1970-ci ildə Babək rayonunun Qaraxanbəyli kəndində doğulmuşdur. 1987-ci ildə Naxçıvan şəhər 39 saylı orta məktəbi bitirmiş, 1988-ci ildə sovet ordusu sıralarına hərbi xidmətə yollanmışdır. 1990-cı ildə hərbi xidmətini başa vuraraq Naxçıvana qayıtmışdır. Ermənilərin Naxçıvana hücumu zamanı M.Seyidov könüllü olaraq özünümüdafiə batalyonunun tərkibində vuruşmuşdur. 1992-ci il iyunun 14-də M. Seyidov döyüş zamanı yoldaşlarını xilas edərkən ağır yaralanmış və onun həyatını xilas etmək mümkün olmamışdır. Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1992-ci il tarixli 367 saylı Fərmanı ilə Seyidov Mirəsgər Mirabdulla oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Təhsil aldığı Naxçıvan şəhər 15 saylı orta məktəb onun adını daşıyır. Həmçinin Milli Qəhrəmana həsr edilmiş sənədli film də çəkilmişdir.